AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

09 (82) 18 may 2017-ci il

İctimai-siyasi qəzet

# İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib



Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin veteranları ilə görüşdülər, onları Böyük Qələbə münasibətilə təbrik etdilər.

Müharibə veteranları Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qələbə Günü münasibətilə təbrik etdilər, onlara göstərdikləri yüksək diqqətə və qayğıya görə minnətdarlıqlarını bildirdilər. Vurğuladılar ki, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirir.



Azərbaycan və onun paytaxtı Bakı şəhəri gündən-günə inkişaf edir, gözəlləşir, abadlaşır.

Xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik edən Böyük Vətən müharibəsi veteranları bildirdilər ki, dövlətimiz onlara yüksək qayğı göstərir. Onlar bu qayğıya cavab olaraq gənclərimizin vətənpərvərlik ruhunda böyümələri, Vətəninə və xalqına layiqli övlad kimi yetişmələri üçün öz bilik və bacarıqlarını əsirgəməyəcəklərini dedilər.

Dövlət başçısı və birinci xanım müharibə veteranlarını bir daha təbrik etdilər, onlara uzun ömür və möhkəm cansağlığı arzuladılar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində SSRİ-nin qazandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə



123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşürdü.





Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferepolun, Odessanın, Polşanın, Çexoslovakiyanın və Yuqoslaviyanın azadlığı uğrunda döyüşlərdə fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları “Xalqımızın qızıl fondu” adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

Böyük Vətən müharibəsi veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 72 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.



Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə Günü münasibətilə onları təbrik etdilər, xatirə şəkli çəkdirdilər.

Dövlət başçısı və birinci xanım iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoydular, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

Mərasimdə Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.





# Azad Rəhimov müharibə veteranları ilə görüşdü

***IV İslam Həmrəyliyi oyunlarının açılışına bir neçə gün qaldığı müddətdə nazir Azad Rəhimov İslam Həmrəyliyi oyunları Əməliyyat Komitəsində Böyük Vətən müharibəsinin bir qrup veteranı ilə görüş keçirib.***

Nazir veteranları Qələbənin 72-ci ildönümü münasibətilə təbrik edərək, onların vətən, xalq qarşısında əvəzsiz xidmətlərindən, gənc nəslə nümunə olmalarından danışıb və hər birinə can sağlığı arzulayaraq, bu səpkili görüşlərin ardıcıl olmasının vacibliyini bildirib.

Daha sonra Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının sədr müavini Cəlil Xəlilov veteranları daim diqqətdə saxladığına və səmimi qəbula görə Gənclər və İdman Naziri Azad Rəhimova təşəkkürünü bildirmişdir.

Tədbirin yekununda nazir Azad Rəhimov Veteranlara IV İslam Həmrəyliyi oyunlrının açılış mərasiminə biletlər və eyni zamanda, Gənclər və İdman Nazirliyi tərəfindən hazırlanmış xüsusi hədiyyələr təqdim etdi, onlarla xatirə şəkili çəkdirdi.



# Respublika Veteranlar Təşkilatında 9 may Qələbə günü qeyd edildi

***Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının və Müdafiə Nazirliyinin təşkilatçılığı ilə İkinci Dünya müharibəsi veteranları üçün təntənəli bayram tədbiri təşkil olunmuşdur. RVT–nin inzibati binasının həyətində Müdafiə Nazirliyinin N saylı hərbi hissəsi tərəfindən quraşdırılmış 80 nəfərə xidmət üçün nəzərdə tutulan səyyar mətbəx və Böyük Vətən müharibəsi dövrünün hərbi geyimində olan əsgər, zabitlər veteranlara nostalji hisslər yaşadaraq, Qələbə bayramının sevincinə əlavə rəng qatmışlar. Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında səslənən müharibə, vətən, qəhrəmanlıq, sevgi haqqında o illərin mahnıları bu ovqatı daha da artırmışdır.***



Tədbirdə Müdafiə Nazirliyinin, Respublika Veteranlar Təşkilatının əməkdaşları, ziyalılar, media nümayəndələri, gənclər iştirak etmişdirlər.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək əlamətdar gün münasibətilə bütün veteranları təbik etmiş, Böyük Vətən müharibəsində Azərbaycan xalqının həm ön, həm də arxa cəbhədəki fədakarlığından, əvəzsiz xidmətlərindən danışmışdır. O bildirdi ki, İkinci Dünya müharibəsi xalqımızın şanlı tarixinin bir parçasıdır. Qələbə Gününün canlı yaddaşı isə veteranlardır. Veteranlar bu Qələbənin yükünü çiyinlərində daşıyıblar. Bu tarixin ən əlamətdar anı isə 1945–ci il mayın 9-u Qələbə Günüdür. Xalqımız veteranları ilə hər zaman fəxr edir.

Sonra veteranlar çıxış edərək onlara göstərilən diqqətə və qayğıya görə minnətdarlıq





etmiş, keçdikləri döyüş yolundan, həyatlarının ən keşməkeşli dövrü olan Böyük Vətən müharibəsi haqqında xatirələrini bölüşmüşlər. Onlar üçün hazırlanmış İkinci Dünya müharibəsini xatırladan ab-hava veteranların ürəyincə olmuşdur.

Hərbi orkestrin ifasında Respublika Veteranlar Təşkilatının Qələbənin 72 illik yubileyi münasibəti ilə hazırladığı sözləri Zəminə Xınalıya, musiqisi Şahin Musaoğluna aid "Veteranlar Marşı" və digər musiqilər səslənmişdir. Sonda veteranlara müxtəlif hədiyyələr təqdim olunmuşdur.

AZƏRBAYCAN VETERANI

# Azərbaycan Respublikası Müdafiə Nazirinin müavini, general-leytenant Kərim Vəliyevlə İkinci Dünya müharibəsi veteranlarının görüşü

08 may 2017-cı il tarixində RVT-nin inzibati binasında Azərbaycan Respublikası Müdafiə Nazirinin müavini, general-leytenant Kərim Vəliyevlə İkinci Dünya müharibəsi veteranlarının görüşü keçirilmişdir.

Tədbir İkinci Dünya müharibəsi zamanı həlak olanların, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanmışdır.

Görüşdə, RVT-nin sədri Dadaş Rzayev, general-polkovnik Tofiq Ağahüseynov, Müdafiə Nazirliyinin və Respublika Veteranlar Təşkilatının əməkdaşları, veteranlar iştirak edirdilər.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov açaraq, veteranlara göstərilən dövlət qayğısından danışmış, onların Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən daim diqqət mərkəzində saxlandığını, problemlərinin vaxtında həll olunduğunu qeyd etmişdir.

Cəlil Xəlilov ölkə rəhbərliyinin yüksək münasibətindən nümunə götürən müvafiq dövlət orqanlarının da veteranlara qayıkeşliklə yanaşdıqlarını, alman faşizmi üzərində qələbənin 72-ci ildönümünü ərəfəsində general-leytenant Kərim Vəliyevlə bugünki görüşün baş tutmasının məhz bunun əyani sübut olduğunu bildimişdir. Son günlər İkinci Dünya müharibəsi veteranları ilə ölkənin bir sıra dövlət orqanlarında silsilə görüşlərin keçirilməsinin doğrudan da sevindirici olduğunu qeyd edən C.Xəlilov hazırkı görüşün ənənəvi xarakter daşıdığını və xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır. “Hər il alman faşizmi üzərində qəlbə günü ərəfəsinə təsadüf edən Müdafiə Nazirliyi rəhbərliyinin İkinci Dünya veteranları ilə görüşləri olduqca səmimi və yaddaqalan olur. Azərbaycan ordusunun son dövrlərdəki uğurları ilə qürur duyan veteranlar belə görüşlər zamanı işğal altındakı torpaqlarımızın düşməndən tezliklə azad edilməsi üçün ordumuzun daha da güclənməsi, qələbə əzminin artması istiqamətində təcrübələrini bölüşür, hərbçilərimizə öz fikir və tövsiyələrini çatdırırlar”.

C.Xəlilov İkinci Dünya veteranlarının sayının günü-gündən azaldığını narahatlıqla bildirərək, onların xüsusi diqqətlə əhatə olunmalarının zəruriliyini qeyd etmişdir. O, həmçinin, İkinci Dünya müharibəsi veteranlarının hər zaman Azərbaycan ordusunun yanında olduğu-nu, gənc əsgər və zabitlərdə vətənpərvərlik hissinin artırılmasında əvəzsiz xidmət göstərdiklərini vurğulamışdır.

Müdafiə Nazirinin müavini, general-leytenant Kərim Vəliyev Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun veteranlara salamlarını və təbriklərini çatdıraraq, İkinci Dünya müharibəsinin tarixdə ən qanlı müharibə hesab edildiyini və 1945-ci ilin 9 may gününün tarixə qızıl hərflərlə yazıldığını vurğulamışdır. Qələbə gününün bütün tərəqqipərvər bəşəriyyətin, sülhsevər insanların bayramı olduğunu qeyd edən nazir müavini bu qələbənin əldə edilməsinə Azərbaycanın verdiyi böyük töhfələrdən danışmış, əvəzsiz xidmətlərinə görə veteranlara dərin minnətdarlığını bildirmişdir.



K.Vəliyev 9 may qələbə gününün ildən-ilə daha böyük təmtəraqla qeyd edildiyini, bunun Ümumilli lider Heydər Əliyevin veteranlara verdiyi böyük dəyərin və diqqətin göstəricisi və nəticəsi olduğunu vurğulamış, hazırda Ali Baş Komandan İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirildiyini bildirmişdir. O, İkinci Duünya veteranalarının, ümumən Respublika Veteranlar Təşkilatının gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında xidmətlərindən danışmış, gənclərin torpağına, xalqına sədaqətli insanlar kimi yetişməsi, hərbi xidmətə hazırlanmaları istiqamətində aparılan fəaliyyəti yüksək qiymətləndirmişdir. O, Şuşanın işğalı gününə təsadüf edən bu görüşün növbəti illərdə Şuşada keçiriləcəyinə əminlik ifadə etmişdir.

Daha sonra Müdafiə Naziri, general-polkovnik Zakir Həsənovun 9 may Qələbə günü münasibətilə imzaladığı əmr veteranaların diqqətinə çatdırılmış və həmin əmrə müvafiq olaraq bir qrup İkinci Dünya müharibəsi veteranına pul mükafatı və qiymətli hədiyyələr təqdim edilmişdir. Müdafiə Nazirinin müavini, general-leytenant Kərim Vəliyev hədiyyələri təqdim edərək, bayram münasibətilə veteranaları bir daha təbrik etmiş, onlara ən xoş arzularını çatdırmışdır.

Sonda İkinci Dünya müharibəsi veteranları adından Fatma Səttarova və Damət Nəbiyev Müdafiə Nazirliyinin rəhbərliyinə və kollektivinə onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmiş, işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyinə və Azərbaycan Ordusunun parlaq qələbəsinə inamlarını ifadə etmişlər.

General-leytenant Kərim Vəliyev veteranlarla xatirə şəkli çəkdirmişdir.

# Paytaxt rayonlarında Qələbənin 72-ci ildönümü qeyd olunub

Yasamal Rayon İcra Hakimiyyəti Dövlət Gömrük Komitəsi ilə birlikdə 1941-1945-ci illər müharibəsində Qələbənin 72 illik yubileyi münasibətilə bir qrup Böyük Vətən müharibəsi veteranı ilə görüş keçirib.

Tədbiri giriş sözü ilə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev açaraq veteranları 9 may - Qələbə bayramı münasibətilə təbrik edib, ölkə Prezidenti İlham Əliyevin veteranlara göstərdiyi qayğı, ölkəmizdə aparılan quruculuq və inkişafdan danışıb.

Dövlət Gömrük Komitəsinin İdarə rəisi, general-mayor Güloğlan Muradlı Qələbə Günü münasibətilə Dövlət Gömrük Komitəsi sədrinin təbrik məktubu oxunub.

Böyük Vətən müharibəsi iştirakçıları Damət Nəbiyev, rayon Müharibə və Əmək Veteranları Təşkilatının sədri Almaz Qasımova çıxış edərək onların sosial problemlərinin həlli sahəsində göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonra veteranlara ərzaq yardımı paylanılıb və xatirə şəkilləri çəkilib.

---

Keşlə qəsəbəsində 1941-1945-ci illərdə həlak olanların xatirəsinə ucaldılan memorial kompleks önündə faşizm üzərində Qələbənin 72 illiyi ilə əlaqədar tədbir keçirilib.

“Şahinlər” hərbi idman oyunlarının qalibi olan məktəblilərin təntənəli keçidindən sonra tədbir iştirakçıları və qonaqlar İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılan memorial kompleksinin önünə gül dəstələri qoyublar. Sonra tədbir Nizami Rayon Mədəniyyət Mərkəzinin 227 nömrəli məktəbin şagirdləri ilə birgə hazırladığı bədii kompozisiya ilə davam etdirilib.

Tədbirdə müharibə iştirakçıları və veteranları ilə görüşən rayon icra hakimiyyətinin başçısı Arif Qasımov və Milli Məclisin deputatı Sədaqət Vəliyeva XX əsrdə bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olan İkinci Dünya müharibəsində faşizm üzərində qazanılmış qələbənin 72 illiyi münasibətilə onları təbrik ediblər.

Faşizmə qarşı mübarizədə həmyerlilərimizin döyüş meydanları və partizan hərəkatında göstərdikləri qəhrəmanlıq və igidlik nümunələrindən söhbət açılıb. Müharibə illərində Azərbaycanın ən qüdrətli cəbbəxana funksiyası daşıdığını, döyüşən orduya lazım olan neft və neft məhsullarının 80 faizindən çoxunun Bakı neftçilərinin istehsal etdiyi söylənilib.

Çıxış edənlər Böyük Vətən müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsi sahəsində atılan addımları bəyəndiklərini bildiriblər.

---

Suraxanı rayonunda 1941-1945-ci illər müharibəsində qələbənin 72-ci ildönümü geniş qeyd olunub. Ümumrayon tədbirində iştirakçılar əvvəlcə Hövsan qəsəbəsində yerləşən əsaslı təmir edilmiş “1941-1945” abidə kompleksinin qarşısına gül-çiçək dəstələri düzüblər.

Qələbə günü münasibətilə veteranları və tədbir iştirakçılarını təbrik edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov 1941-1945-ci illərdə Azərbaycan əsgərlərinin Qafqazdan Berlinə qədər uzanan döyüş yolundan və arxa cəbhədə göstərilən fədakarlıq nümunəsindən danışıb. Həmin illərdə Suraxanı neftçilərinin də böyük əməyi olub. Rayonunda 13 nəfər müharibə iştirakçısı, 22 nəfər arxa cəbhədə fədakar əməyə görə orden və medallarla təltif olunub, 184 nəfər həlak olmuş və ya vəfat etmiş müharibə iştirakçılarının dul qadınları yaşayır.

Tədbirdə Milli Məclisin deputatı Sevinc Fətəliyeva, Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov çıxış ediblər. 118 nömrəli tam orta məktəb şagirdlərinin hazırladığı kompozisiya nümayiş olunub.

Sonra iştirakçılar Qaraçuxur qəsəbəsində yerləşən “Vətən şəhidləri unudulmur” abidəsinin önünə gül qoyublar .

---

Binəqədi rayonunda 1941-1945-ci illər Böyük Vətən müharibəsində alman faşizmi üzərində Qələbənin 72 illiyi münasibətilə tədbir keçirilib.

Çay süfrəsi ətrafında təşkil olunan tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin əldə olunmasında Azərbaycan xalqının göstərdiyi rəşadət, ön və arxa cəbhədəki qəhrəmanlıq və şücaətdən bəhs edib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon İdarəsinin rəisi Novruz Rəhimov, Rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, Binəqədi RVT-nın sədri Telman Hətəmov, İctimai Şuranın sədri Aslan Mehdiyev, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Ramiz Göyüşov son illər ölkəmizdə əhalinin, xüsusilə də, müharibə veteranlarının sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini, xüsusi qayğıya ehtiyacı olanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıblar.

Tədbirdə iştirak edən Binəqədi rayonunda yaşayan Böyük Vətən müharibəsi iştirakçıları onlara göstərilən diqqət və qayğı üçün ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

AZƏRTAC

# Azərbaycan dövləti müharibə veteranlarının problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşır

Mayın 9-da Nərimanov rayonunda yerləşən "Qardaşlıq Məzarlığı" Əbədi Xatirə Kompleksində faşizm üzərində Qələbənin 72-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Böyük Vətən müharibəsi veteranlarının, Milli Məclisin deputatlarının, MDB ölkələrinin Azərbaycandakı səfirlərinin və digər akkreditə olunmuş nümayəndələrinin, hərbçilərin, gənclərin, rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdikləri tədbir Azərbaycanın dövlət himninin səslәndirilməsi və Böyük Vətən müharibəsində, həmçinin torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.





Sonra əllərində MDB dövlətlərinin bayraqlarını tutmuş gənc şahinlərin Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önündən fəxri keçidi olub.

Tədbirdə çıxış edən Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Azərbaycan xalqının faşizm üzərində tarixi Qələbəyə böyük töhfə verdiyini, bu şanlı zəfərin əldə olunmasında çox böyük payı olan xalqımızın 640 mindən çox oğul və qızını cəbhəyə yola saldığını, onların təxminən yarısının döyüşlərdə həlak olduğunu bildirərək, həmin dəhşətli müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü, 170 mindən çox əsgər və zabitimizin müxtəlif orden və medallarla təltif edildiyini vurğulayıb.

A.Fərzəliyev xalqımızın faşizmə qarşı mübarizədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də qəhrəmanlıq göstərdiyini qeyd edərək, şanlı Qələbəyə neft Bakısının töhfəsinin də əvəzsiz olduğunu, müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsinin, aviasiya benzini və yüksəkkeyfiyyətli motor yağlarının 85-90 faizinin Azərbaycanın payına düşdüyünü, Qələbənin qazanılmasında həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyətinin Bakı neftçilərinin göndərdiyi yanacaqla hərəkətə gətirildiyini diqqətə çatdırıb.

Sahəsi 11 min 220 kvadratmetr olan ərazidə inşa olunan, müharibə zamanı Bakıdakı hospitallarda vəfat etmiş, arasında müxtəlif xalqların nümayəndələrinin də mövcud olduğu 1462 qəhrəman döyüşçünün dəfn olunduğu "Qardaşlıq Məzarlığı" Əbədi Xatirə Kompleksinin dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində yaradıldığını nəzərə çatdıran icra başçısı ölkəmizin bütün sahələrində, o cümlədən hərbi sahədə əldə olunmuş nailiyyətləri qeyd edib. O, mənfur düşməni hər an məhv etməyə qadir yenilməz və mütəşəkkil ordumuzun olduğunu, vaxtilə babalarımızın qəhrəmanlıq göstərərək faşizm üzərində əldə etdiyi möhtəşəm Qələbənin davamının tezliklə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bugünkü gənc nəslin təmsil etdiyi şanlı ordumuzun sayəsində torpaqlarımızın işğaldan azad olunması və son nəticədə erməni faşizmi üzərində qələbə ilə davam edəcəyinə əminliyini bildirib.



Milli Məclisin deputatı Rasim Musabəyov veteranlarımızın ölkəmizin ictimai-siyasi həyatında, xüsusən gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak etdiyini, zəngin təcrübələrini onlarla bölüşməkdən əsirgəmədiyini bildirib.



Tədbirdə müharibə veteranı, Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

MDB ölkələri səfirləri adından veteranları təbrik edən Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin Azərbaycan dövlətinin rəhbərliyinin keçmiş sovet ölkələrinin müştərək tarixi ilə bağlı mövqeyinin yüksək qiymətləndirildiyini qeyd edib. Səfir Azərbaycanın müharibə illərində möhtəşəm Qələbənin əldə olunmasında verdiyi layiqli töhfələri böyük qəhrəmanlıq adlandırıb.

Tədbir iştirakçıları 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önünə əklil qoyub, kompleksi ziyarət ediblər.

## Cavanşir Axundov: hər tankda, hər təyyarədə Azərbaycan benzini Qələbə üçün vuruşurdu

Mayın 9-da Riqadakı Qələbə parkında, Latviyanı və Riqanı alman-faşist işğalçılarından xilas edənlərin xatirəsinə ucaldılmış abidənin ətrafında nasizmin darmadağın edilməsinin 72-ci ildönümünə həsr olunmuş təntənəli tədbirlər keçirilib. Müxtəlif ölkələrin səfirləri, İkinci Dünya müharibəsinin veteranları, Riqanın meri Nil Uşakov Qələbə parkına gəliblər.

9 May - Böyük Qələbə Gününə həsr edilmiş tədbirlərdə, səfir Cavanşir Axundovun başçılığı ilə Azərbaycanın Latviyadakı səfirliyinin əməkdaşları da iştirak ediblər.

Mayın 8-də Ropajidəki qardaş qəbiristanlığında müharibə dövründən itkin düşən hesab edilmiş 137 sovet əsgərinin nəşinin qalıqlarının dəfn mərasimi oldu.



Azərbaycanın Latviyadakı səfiri Cavanşir Axundov dəfn mərasimində çıxış edib. O deyib ki, Ropaji qardaş məzarında keçmiş SSRİ-nin bütün xalqlarını təmsil edən 2 mindən çox əsgərin nəşinin qalıqları dəfn olunub. Müharibə vaxtı əhalisinin sayı 3,5 milyon olan Azərbaycandan təxminən 700 min nəfər, yəni orta hesabla hər beş nəfərdən biri müharibəyə çağırılmışdı! Bundan əlavə, hər tankda, hər təyyarədə Azərbaycan benzini Qələbə üçün vuruşurdu. Ona görə də məşhur "Zabitlər" filmindəki bir mahnıda səslənən "Rusiyada elə ailə yoxdur ki, orada öz qəhrəmanı unudulmuş olsun" sözləri Azərbaycana da aiddir.

Nigar Cəfərli
AZRTAC -ın xüsusi müxbiri
Riqa

## SOCAR-ın Qaz Emalı Zavodunun əməkdaşları veteranlara baş çəkiblər



SOCAR-ın Qaz Emalı Zavodunun əməkdaşları 9 May - Qələbə günü ilə əlaqədar Qaradağ rayonunda yaşayan II Dünya müharibəsi veteranlarına baş çəkib, Böyük Vətən müharibəsi iştirakçılarını faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə təbrik edib, onlara hədiyyələr təqdim ediblər.

Görüşlər zamanı faşizm üzərində qələbənin əldə olunmasında azərbaycanlıların göstərdikləri igidlik və şücaətdən söz açılıb, arxa cəbhədə Azərbaycan neftçilərinin əməyi xüsusi qeyd olunub. Vurğulanıb ki, Bakı nefti, Azərbaycan neftçilərinin fədakarlığı olmasaydı, bu müharibədə qələbə qazanmaq mümkünsüz olardı.

Müharibə və arxa cəbhə veteranları İsa İsmayıloğlu və Vəli Quliyev cəbhə həyatı və müharibədən sonrakı əmək fəaliyyətləri barədə xatirələrini danışıb, Prezident İlham Əliyevin müharibə veteranlarına göstərdiyi daimi qayğıdan razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

# Faşizm üzərində Qələbənin ildönümü Şəki-Zaqatala bölgəsində silsilə tədbirlərlə qeyd olunub

İkinci Dünya müharibəsi veteranlarının keçdiyi qəhrəmanlıqlarla dolu şərəfli həyat yolu bugünkü gənclərə əsl nümunədir. Bu fikir faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə Zaqatalada keçirilən tədbirdə səsləndirilib.

Rayon rəhbərliyi və müharibə veteranları, həmçinin bayram tədbirində iştirak edən Dağıstan Respublikasının Azərbaycandakı nümayəndəliyinin təmsilçiləri əvvəlcə İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış “Xilaskar əsgər” abidəsinin önünə gül-çiçək düzüb, igid həmyerlilərinin xatirəsini ehtiramla yad ediblər.



Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinə gələrək Ulu Öndərin burada ucaldılmış abidəsi önünə gül dəstələri düzüblər.

Mərkəzin kafesində çay süfrəsi ətrafında davam edən tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə müharibə iştirakçılarını faşizm üzərində Qələbənin ildönümü münasibətilə təbrik edib, müharibə illərində xalqımızın igid oğul və qızlarının göstərdikləri qəhrəmanlıqlardan danışıb. Diqqətə çatdırılıb ki, İkinci Dünya müharibəsində iştirak edən 6200 zaqatalalı döyüşçünün yarıdan çoxu cəbhədən geri qayıtmayıb.



Vurğulanıb ki, hər yerdə olduğu kimi, Zaqatala rayonunda da müharibə veteranları yüksək diqqət və qayğı ilə əhatə olunublar. Hazırda rayonda 5 nəfər 1941-1945-ci illər müharibəsinin iştirakçısı yaşayır. Onların şərəfli ömür yolu zaqatalalı gənclərə əsl nümunə, örnəkdir.

Sonra rayon icra hakimiyyəti tərəfindən veteranlara maddi yardım göstərilib.

Faşizm üzərində tarixi Qələbənin ildönümü münasibətilə Balakən rayonunda keçirilən tədbir 1941-1945-ci illərin Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə Katex kəndində ucaldılmış “Ana” abiəsini ziyarətlə başlayıb.

Rayon rəhbərliyi və müharibə veteranları abidənin önündə xatirə şəkilləri çəkdiriblər.

Qeyd olunub ki, müharibədə 7 minə yaxın balakənli iştirak edib, onların 2500 nəfəri döyüşlərdə həlak olub. Hazırda rayonda 5 nəfər İkinci Dünya müharibəsi iştirakçısı yaşayır. Onlar dövlətimiz tərəfindən daim qayğı ilə əhatə olunublar.

Faşizm üzərində Qələbənin ildönümü Qax rayonunda da silsilə tədbirlərlə qeyd olunub.

Əlamətdar gün münasibətilə rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri İkinci Dünya müharibəsinin iştirakçısı, Qaşqaçay kənd sakini Hacıbala Əzizovun və arxa cəbhə veteranı, Qax şəhər sakini Fikrət Yusifovun evlərində qonaq olub, veteranları bayram münasibətilə təbrik edib, onların səhhəti ilə maraqlanıblar. Görüşlərdə vurğulanıb ki, faşizm üzərində tarixi Qələbənin təmin olunmasında azərbaycanlıların da çox böyük rolu və payı olub. Bildirilib ki, İkinci Dünya müharibəsində 600 mindən çox həmvətənimiz iştirak edib, onların yarıdan çoxu döyüşlərdə həlak olub. Müharibədə Qaxın igid oğul və qızları da böyük şücaət və qəhrəmanlıqlar göstəriblər.



Sonda müharibə veteranlarına rayon icra hakimiyyəti tərəfindən maddi yardım göstərilib.

# İkinci Dünya müharibəsində 5 min 612 astaralı döyüşçü iştirak edib



Mayın 9-da Astara şəhərində alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü bayram sevinci ilə qeyd olunub.

Rayon rəhbərliyi, İkinci Dünya müharibəsinin iştirakçıları, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və ictimaiyyətin nümayəndələri “Qəhrəmanlar bağı”nda Sovet İttifaqı qəhrəmanları Ziya Bünyadov, Mirzə Cəbiyev və İlya Koverinin, üç “Şöhrət” ordenli Ağahəsən Nəhmətov və Rəhmət Hətəmovun büstləri önünə əklillər və gül dəstələri düzərək müharibədə həlak olanların xatirəsini yad ediblər.

Böyük Vətən müharibəsi iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edən rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev İkinci Dünya müharibəsində azərbaycanlı döyüşçülərin qəhrəmanlıqlarının, arxa cəbhədə çalışanların fədakar əməyinin yüksək qiymətləndirildiyini söyləyib. O, ölkəmizdə müharibə iştirakçılarına yüksək dövlət qayğısının göstərildiyini vurğulayıb.

İcra hakimiyyətinin başçısı rayonun Səncərədi kənd sakini, 100 yaşlı Böyük Vətən müharibəsi veteranı Ağabəy Dadaşovu ad günü və Qələbə bayramı münasibətilə təbrik edərək ömrünün ən ahıl çağlarını yaşayan bu nurani el ağsaqqalının keçdiyi şərəfli ömür yolunun nəsillərə örnək olduğunu diqqətə çatdırıb.

Toplantıda çıxış edən Müharibə, Əmək, Silahlı Qüvvələr veteranları təşkilatı Astara rayon şöbəsinin sədri Rafiq Əliyev, rayon ağsaqqallar şurasının sədri Hamlet Əliyev, əmək veteranı Paşa Əkbərov və başqaları İkinci Dünya müharibəsində Qələbənin əldə edilməsində azərbaycanlı döyüşçülərin, o cümlədən astaralıların qəhrəmanlıqlarından danışıb, ölkəmizdə müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Çıxışlarda qeyd olunub ki, İkinci Dünya müharibəsində 5 min 612 astaralı döyüşçü iştirak edib. Onlardan 1064-ü müharibədə həlak olub, 827 nəfəri isə itkin düşüb.

Bağır Əliyev

# Heç kim unudulmur, heç nə yaddan çıxmır

Sabunçu Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə faşizm üzərində qələbənin 72-ci ildönümü ilə əlaqədar müharibə veteranları ilə görüş keçirilib.

Tədbir iştirakçıları Sabunçu qəsəbəsində yerləşən 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə ucaldılmış “Qardaşlıq məzarlığı”na gül-çiçək dəstələri düzüblər.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Güloğlan Məmmədov alman faşist işğalçılarına qarşı müharibədə ön və arxa cəbhədə xalqımızın oğul və qızlarının göstərdiyi igidlik nümunələrindən və əldə edilən qələbədə böyük pay sahibi olmağı barədə danışıb.

Çıxış edənlər faşist ordusu ilə döyüşlərdə 130 Azərbaycan əsgərinin Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü bildirib və belə bir qələbənin Qarabağ uğrunda döyüşlərdə də qazanılacağı günün uzaqda olmadığını da bildiriblər.

Tədbir Bakıxanov qəsəbəsində veteranlar üçün təşkil edilmiş bayram süfrəsi ətrafında bədii-əyləncəli konsert proqramı ilə davam etdirilib.



# Sumqayıtlı müharibə veteranları onlara göstərilən dövlət qayğısından razılıq edirlər

*Faşizm üzərində Qələbənin 72-ci ildönümü Sumqayıtda da qeyd olunub.*

Tədbir iştirakçıları əvvəlcə 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə ucaldılan abidənin önünə gül dəstələri qoyublar. Müharibədə həlak olan həmyerlilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycanın dövlət himni səsləndirilib.



Tədbirdə müharibənin bəşəriyyətə gətirdiyi faciədən, Azərbaycan xalqının ön və arxa cəbhədə göstərdiyi qəhrəmanlıqlarda, Qələbənin qazanılmasında Bakı neftinin müstəsna rolundan bəhs edilib. Sumqayıtlılar torpaqlarımızın işğaldan azad ediləcək günün də tezliklə qeyd olunacağına inandıqlarını bildiriblər.

Sonra Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov veteranlarla görüşüb. Veteranlar onlara göstərilən dövlət qayğısından razılıq ediblər.

Qələbə günü münasibətilə keçirilən paradda milli ordunun "N" saylı hərbi hissəsinin əsgərləri, nəfəsli alətlərin orkestri, Sumqayıtdakı məktəbliləri təmsil edən "Şahin" komandaları, hərbi geyimli məktəblilər iştirak ediblər.

Parad iştirakçıları abidənin önündən keçəndən sonra şəhərin küçələri boyunca hərəkət ediblər. Hərbi marşın sədaları altında nizami addımlarla irəliləyən paradı minlərlə şəhər sakini izləyib.

*Ətrabə Rzayeva*

# İkinci Dünya müharibəsi veteranları ilə Pirallahı rayonunda görüş keçirilmişdir

Pirallahı Rayon İcra Hakimiyyətində alman faşizmi üzərində qələbənin 72-ci ildönümünə həsr olunmuş 1941-1945-ci illər müharibəsi iştirakçıları və arxa cəbhə veteranları ilə görüş keçirilib.

Rayon icra hakimiyyəti başçısının müavini Vəzir Səfixanov qeyd edib ki, ikinci dünya müharibəsinin ən ağır illərində azərbaycanlı əsgər və zabitlər Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus respublikaları uğrunda döyüşlərdə cəsarətlə vuruşaraq işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsində qəhrəmanlıq nümunələri göstəriblər.

Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev çıxış edərək tədbirdə iştirak edən müharibə veteranlarını alman faşizmi üzərində qələbənin 72 illiyi münasibətilə təbrik edərək üçrəngli Azərbaycan bayrağının Xankəndində və Şuşada ucaldılacağına əminliyini söyləyib.



Veteranlar müharibə xatirələrini, döyüş meydanlarında göstərdikləri şücaətləri xatırlayıblar.

Tədbir məktəblilərin hazırladığı rəngarəng səhnəciklər və ədəbi bədii kompozisiya proqramı ilə davam etdirilib.

Qızıl Aypara cəmiyyəti Pirallahı rayon bölməsi Böyük Vətən müharibəsi iştirakçılarına və arxa cəbhə veteranlarına ərzaq bağlamaları təqdim edib. Səhhətindəki problemlərlə əlaqədar görüşdə iştirak edə bilməyən veteranlar evlərində ziyarət olunub.

# Faşizm üzərində Qələbənin 72-ci ildönümü Tovuzda qeyd olunub




Faşizm üzərində tarixi Qələbənin 72-ci ildönümü münasibətilə Tovuzdakı Qəhrəmanlar parkında təntənəli mərasim keçirilib.

Müharibə və əmək veteranları, rayon ictimaiyyətinin nümayəndələri parkda ucaldılmış "1941-1945" abidə kompleksinin önünə tər çiçəklər düzüb, müharibə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov mərasimdə çıxış edərək veteranları bayram münasibətilə təbrik edib. Bildirib ki, Böyük Vətən müharibəsində 7790 tovuzlu iştirak edib. Onların böyük əksəriyyəti müharibədə həlak olub. Tovuzlulardan Mərdan Musayev, Yusif Sadıqov və Məstan Əliyev "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb, minlərlə döyüşçü orden və medallarla təltif olunub. Hazırda rayonda 21 veteran var.

Tədbirdə ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğıdan danışılıb.

Sonda müharibə veteranları üçün bayram süfrəsi açılıb.

# Səbail rayonunda alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü qeyd edilib

Ənənəvi olaraq Bayıl yaşayış sahəsindəki Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun adını daşıyan bağda keçirilən tədbirdə rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, Hərbi Dəniz Qüvvələrinin zabit və matrosları və veteranları iştirak ediblər. Əvvəlcə Hərbi Dəniz Qüvvələri orkestrinin ifasında dövlət himni və müxtəlif marşlar səslənib.

Zabit, əsgər və məktəblilər Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun Parkda ucaldılmış büstü önünə tər çiçəklər düzüblər.



Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov öz çıxışında qazanılan qələbədə müharibə iştirakçıları, həmin illərdə arxa cəbhədə çalışanların çox böyük qəhrəmanlıq nümunəsi göstərdiyini və onların fədakar əməklərinin unudulmadığını bildirib. Ölkə Prezidenti İlham Əliyevin göstərişi ilə həyata keçirilən mühüm əhəmiyyətli tədbirlər müharibə veteranlarının sosial müdafiəsinin daha da yaxşılaşmasına yönəldilib. Qələbənin 72 illiyi ərəfəsində Prezidentin Sərəncamı ilə 1941-1945-ci illər müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyə görə orden və medallarla təltif olunmuş şəxslərə birdəfəlik maddi yardım verilməsi bu qayğının bariz nümunəsi olduğunu söyləyib və Qələbə günü münasibətilə veteranları təbrik edib.

Sonra tədbir parkın qarşısında yerləşən, müharibə illərində təxliyə hospitalının fəaliyyət göstərdiyi Səbail rayonundakı 49 saylı «İntellekt» liseyin yeni tədris korpusunda davam etdirilib.

Veteranlar öz xatirələrini danışıb, onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə veteranlara hədiyyə və maddi yardımlar təqdim olunub.

# Naxçıvanda faşizm üzərində Qələbənin 72-ci ildönümü qeyd olunub

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə kompleksinə gələrək Böyük Vətən müharibəsi veteranları ilə görüşüb, onları alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü münasibətilə təbrik edib.



Ali Məclisin Sədri kompleksdəki abidənin önünə tər gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə dərin ehtiramını bildirib.

Mərasim iştirakçıları və ictimaiyyətin nümayəndələri də abidə önünə gül dəstələri düzüblər.

Sonra Azərbaycanın dövlət himni səsləndirilib.

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib, cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Azərbaycanlı çağırışçılardan və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar böyük qəhrəmanlıq göstərərək Zaqafqaziya cəbhəsindən Berlinədək qanlı-qadalı döyüş yolu keçiblər. Xalqımız arxa cəbhədə də misilsiz əmək hünərləri göstərib, ordunun ehtiyaclarını ödəmək üçün gecə-gündüz fədakarlıqla çalışıb. Böyük Qələbəyə Bakı neftinin töhfəsi əvəzsiz olub.

Naxçıvanlılar da müharibədə qəhrəmancasına döyüşüb, qələbənin qazanılmasında öz töhfələrini veriblər. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb, göstərdikləri igidliklərə görə 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülüb, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müha-



ribə iştirakçılarından 600-ə yaxını orden və medallarla təltif olunub.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlığı və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: "Hər bir gənc veteranlarımızın qəhrəmanlıq nümunələrindən, əmək fədakarlığından özü üçün nümunə götürməlidir. O qəhrəmanlıq nümunələri bugünkü nəslimiz, gələcək nəsillər üçün örnək, məktəb, təcrübə mənbəyi olmalıdır".

Həmin gün Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə tədbirlər keçirilib.

# Cənub bölgəsində İkinci Dünya müharibəsində Qələbənin 72-ci ildönümü təntənə ilə qeyd olunub

Mayın 9-da ölkəmizin cənub bölgəsində İkinci Dünya müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 72-ci ildönümü təntənə ilə qeyd olunub.

Lənkəran şəhərində İkinci Dünya müharibəsində həlak olanların şərəfinə ucaldılmış abidə-kompleksinin önündə keçirilən mərasimdə rayon rəhbərliyi, müharibə və əmək veteranları, arxa cəbhə iştirakçıları, hüquq-mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları abidə-kompleksin önünə əklillər və gül dəstələri düzərək Böyük Vətən müharibəsində həlak olan lənkəranlıların xatirəsini ehtiramla yad ediblər.

Mərasim Gənclər Mərkəzində bayram süfrəsi arxasında davam edib.

Bayram sevincini veteranlarla bölüşən şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov ölkəmizdə onlara göstərilən yüksək dövlət qayğısından danışıb, mühari-



bə veteranlarına ən xoş arzularını çatdırıb.

Taleh Qaraşov çıxışında işğal altında olan torpaqlarımızın dövlətimizin başçısının rəhbərliyi ilə yaxın zamanlarda azad olunacağına və Qələbə bayramının Şuşada, Xankəndidə, digər tarixi məkanlarımızda qeyd ediləcəyinə əminliyini bildirib.

Tədbirdə çıxış edən müharibə veteranları onlara göstərilən diqqət və qayğıya



görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Bayram tədbiri rayonun bədii özfəaliyyət kollektivlərinin rəngarəng konsert proqramı ilə davam edib.

9 May - Qələbə Günü münasibətilə Cəlilabad şəhərindəki "Ana" abidəsi önündə keçirilən tədbirdə İkinci Dünya müharibəsində həlak olan cəlilabadlı döyüşçülərin xatirəsi ehtiramla yad edilib. Mərasim iştirakçıları abidə önünə gül dəstələri düzüblər.

Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Böyük Vətən müharibəsinin iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edərək onlara ən xoş arzularını çatdırıb.

Tədbirdə çıxış edən müharibə veteranları keçdikləri şərəfli ömür yolundan danışıblar. Veteranlar Qələbə Gününün tezliklə Qarabağda qeyd edəcəklərinə əminliklərini bildiriblər.

Sonda müharibə veteranlarına hədiyyələr təqdim edilib.

Masallı şəhərindəki "Qəhrəmanlar Parkı"nda İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 72 illiyi münasibətilə keçirilən mərasimdə rayon rəhbərliyi, müharibə və əmək veteranları, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları İkinci Dünya müharibəsində həlak olmuş masallılıların xatirəsinə ucaldılan abidə-kompleksinin önünə gül dəstələri düzərək xatirələrini ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsinin rəisi Rəsul Quliyev və başqaları 72 il əvvəl alman faşizmi üzərində qazanılmış Qələbənin tarixi əhəmiyyətindən danışaraq ölkəmizdə veteranlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Lerikdə İkinci Dünya müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 72-ci ildönümünə həsr olunmuş konfrans keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Lerik şəhərində Böyük Vətən və Qarabağ müharibələrində həlak olanların xatirəsinə ucaldılmış abidə-kompleksinin önünə



gül dəstələri düzərək müharibədə həyatını itirmiş insanların xatirəsini ehtiramla yad ediblər.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov əlamətdar gün münasibətilə müharibə veteranlarını təbrik edib. İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycan xalqının əvəzsiz rolu, azərbaycanlıların döyüş meydanlarında və arxa cəbhədə göstərdikləri fədakarlıqlar barədə danışıb.

Qeyd olunub ki, İkinci Dünya müharibəsində Lerik rayonundan cəbhəyə yola salınan 6500 nəfərdən 1584 nəfərin həlak olub, 3314 nəfər yaralanıb.

Konfransda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsinin rəisi, mayor Fəxrəddin Mirzəliyev, Qarabağ müharibəsi əlili Veysəl Məlikov, Lerik Rayon Veteranlar Təşkilatının sədri Hidayət Bəşirov, müharibə veteranlarından Daşdəmir Paşayev, Salam Cabbarov, əmək veteranlarından Həmzə Vəlimməmmədov, Musa Bədəlov çıxış edərək faşizm üzərində qazanılmış Qələbə ilə Azərbaycan xalqının da fəxr etdiyini, bu günün unudulmaz tarixə çevrildiyini bildiriblər.

Çıxış edənlər Qələbə Gününün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə yaxın zamanlarda Qarabağ torpaqlarında, qədim Şuşa şəhərində qeyd ediləcəyinə əminliklərini bildiriblər.

## İkinci Dünya müharibəsinə yollanan xaçmazlılardan 3 min 400 nəfəri geri qayıtmayıb



Böyük Vətən müharibəsində iştirak etmiş xaçmazlılardan yalnız beşi yaşayır. İkinci Dünya müharibəsinə yollanan 8 min 739 xaçmazlıdan cəmi 5 min 339 nəfəri geri qayıdıb.

Xaçmazda Böyük Vətən müharibəsində tarixi Qələbənin 72-ci ildönümü münasibətilə keçirilən tədbirdə məlumat verilib.

Mərasim iştirakçıları İkinci Dünya müharibəsində həlak olan xaçmazlıların xatirəsinə ucaldılan abidəni ziyarət ediblər.

Çıxış edənlər bildiriblər ki, İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərib. Bakı nefti faşizm üzərində Qələbə qazanılmasında mühüm rol oynayıb.

Sonra Qələbə Günü münasibətilə müharibə veteranları üçün ziyafət təşkil olunub.

*Elxan Yusifli*

## Tarixi Qələbənin ildönümü münasibətilə Gəncədə keçirilən tədbirdə əsl bayram sevinci yaşanıb

Böyük Vətən müharibəsində Qələbənin 72-ci ildönümü münasibətilə Gəncədə keçirilən tədbirdə əsl bayram sevinci yaşanıb.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin rəsmiləri, veteranlar, müharibə iştirakçıları və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Gəncə şəhər Xan bağında təşkil olunan mərasimdə əvvəlcə ənənəvi olaraq Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun məzarı ziyarət edilib, abidəsi önünə çələng və gül dəstələri qoyulub. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Gəncə Qarnizonu Zabitlər Evinin Hərbi Orkestri marşlar və vətənpərvərlik ruhunda mahnılar səsləndiriblər.



Gəncə Dövlət Dram Teatrının aktyorları tədbir iştirakçıları qarşısında Mir Cəlal Paşayevin "Ərik ağacı" hekayəsi əsasında səhnələşdirilmiş ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Sonra şəhər sakinləri, gənclər, tələbələr, məktəblilər Böyük Vətən müharibəsi iştirakçılarının xatirələrini dinləyib, keçdikləri çətin və şərəfli döyüş yolu ilə maraqlanıblar. Sinəsində çoxsaylı orden və medallar daşıyan veteranlar faşizm üzərində Qələbə münasibətilə hər kəsi təbrik edib, onlara göstərilən diqqətə, qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, İkinci Dünya müharibəsində ön cəbhədə Gəncə şəhərindən 28 min 600 nəfər vuruşub. Onların yarısı müharibədə həlak olub. Hazırda Gəncə şəhərində Böyük Vətən müharibəsində ön cəbhədə döyüşən 16 nəfər, arxa cəbhədə xidmət göstərənlərdən isə 71 nəfər yaşayır. Daim dövlətin diqqət və qayğısı ilə əhatələnən veteranlara müxtəlif vaxtlarda dövlət hesabına ev, avtomobil, torpaq sahələri hədiyyə edilib.

*Rauf Hacıyev*

## 91 yaşlı müharibə veteranını yaşadığı mənzildə təbrik ediblər

"Bu gün əsas xahişim budur ki, Prezidentimizə mənim salamımı çatdırın. Bizə göstərilən diqqət və qayğıya görə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Sağ olsun, ölkədə sülh, əmin-amanlıq yaradıb, insanlar firavan yaşayır. Yaşlılara xüsusi qayğı, diqqət göstərilir. Əgər Ali Baş Komandan Qarabağa döyüşə çağırış edərsə, mən mütləq bu çağırışa qoşularam"

Bu fikirləri Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində yaşayan 91 yaşlı Böyük Vətən müharibəsi veteranı İdris Əhmədov Qələbənin 72-ci ildönümü münasibətilə onu təbrik etməyə gələn qonaqlarla görüşdə səsləndirib.



Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev və bir qrup ictimaiyyət nümayəndəsi müharibə veteranını yaşadığı mənzildə təbrik ediblər.

İcra hakimiyyətinin başçısı Əhəd Abıyev xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Böyük Vətən müharibəsi veteranlarına diqqət və qayğının artırıldığını, onların məişət və sosial problemlərinin həlli ilə bağlı konkret tədbirlər görüldüyünü diqqətə çatdırıb.

Qeyd edilib ki, Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev hər il müvafiq sərəncamları ilə Böyük Vətən müharibəsi veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılmasını təmin edir, onları daim diqqətdə saxlayır.

Müharibə veteranı görüşdə Qafqaz cəbhəsindən Berlinədək uzanan döyüş yolunu, müharibə illərindəki xatirələrini yada salıb, veteranlara göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Sonda qonaqlar tərəfindən gətirilən mükafat və hədiyyələr veteran döyüşçüyə təqdim edilib.

## Azərbaycanlılar faşizm üzərində Qələbədə böyük pay sahibi olublar

Mayın 9-da Abşeron rayonunda faşizm üzərində Qələbənin 72-ci ildönümünə həsr edilmiş silsilə tədbirlər keçirilib.

Qələbə bayramının iştirakçıları əvvəlcə həmyerliləri Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Novxanı kəndində ucalan abidəsini ziyarət edib, önünə əklil və gül dəstələri düzüb, xatirəsini anıblar.

Tədbir Xırdalan şəhərinin mərkəzində müharibə qurbanlarının xatirəsinə ucaldılmış "Ana" abidəsi qarşısında davam etdirilib. İştirakçılar abidənin önündə alovlanan əbədi məşəl önünə əklil qoyub və güllər düzüblər.

Sonra müharibənin ağrılı-acılı günlərini xatırladan ədəbi bədii kompozisiya nümayiş olunub. Qələbə bayramında milli ordunun "N" saylı hərbi hissəsinin əsgərləri, Xırdalanın ayrı-ayrı məktəblərinin "Şahin" hərbi-idman oyununda iştirak etmiş komandaları hərbi orkestrin müşayiəti ilə şəhərin mərkəzi küçələri boyunca hərəkət ediblər. Parad abşeronlularda böyük ruh yüksəkliyi yaradıb.



## İkinci Dünya müharibəsi bəşəriyyətin ən ağır və dəhşətli dövrü olub

Azərbaycan Tibb Universitetində İkinci Dünya müharibəsi veteranları ilə görüş keçirilib

Universitetin rektoru, professor Gəray Gəraybəyli Tibb Universitetində çalışan İkinci Dünya müharibəsi veteranları ilə görüşüb.

Rektor faşizm üzərində Qələbənin 72-ci ildönümü - 9 may Qələbə Günü münasibətilə "1941-1945-ci illər Vətən müharibəsində fədakar əməyə görə" medalı ilə təltif edilmiş arxa cəbhə veteranlarını universitetin professor-müəllim heyəti və tələbələri adından təbrik edib. G.Gəraybəyli bildirib: "XX əsrdə İkinci Dünya müharibəsi illəri bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olub. Çox təəssüf ki, Qələbə bayramı bir müddət qeyd olunmadı. Lakin ulu öndərimiz Heydər Əliyev bu bayramın da qeyd olunmasının bərpasına nail olub".

Sonra ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımov rektorun əmri ilə tədbir iştirakçılarını tanış edib. Əmrə əsasən arxa cəbhə veteranları mükafatlandırılıblar.

# Ветераны рассказали бакинской молодежи о трагических и героических днях Великой Отечественной войны

Накануне Дня Победы в Российском информационно-культурном центре (РИКЦ) состоялась встреча молодежи с ветеранами Великой отечественной войны и членами общественного объединения "Жители блокадного Ленинграда". Вначале зрителям был представлен небольшой видеоролик о ВОВ, который вызвал слезы на глазах у ветеранов,



и словно вернул их в прошлое. В своих воспоминаниях ветераны затронули не только события своей личной жизни в трагические и героические для Азербайджана годы, но и общий подвиг всего народа во имя мирных, безоблачных дней для нынешних поколений. Помимо всего этого, они вспоминали и смешные, забавные эпизоды. В интервью военный журналист, капитан первого ранга в отставке, заместитель председателя секции ветеранов войны — однополчан Азербайджана Александр Гритченко, которому в этом году исполнилось уже 95 лет, отметил, что война до сих пор у него перед глазами. По его словам, в ряды военно-морского флота он был призван в 1940 году. Гритченко принимал участие в боевых действиях на Черноморском флоте, Дунайской и Азовской военных флотилиях, также сражался на боевых кораблях и в частях морской пехоты. В завершающий период войны участвовал в освобождении Болгарии, Румынии, Венгрии, Югославии, Чехословакии и Австрии. "Воевать было очень трудно, и еще раз трудно. Те, кто не видел все это своими глазами, могут считать себя счастливыми людьми, потому что те, кто видел — до сих пор не могут забыть", — сказал Гритченко. По его словам, во время войны он не только воевал, но и писал очерки в фронтовые газеты. Гритченко награждён медалями разных стран, он кавалер ордена Красного знамени, двух орденов Красной Звезды, также награжден двумя медалями "За боевые заслуги", помимо всего этого является заслуженным работником культуры и заслуженным пропагандистом Азербайджана. Гритченко — автор более 50 книг, 100 брошюр, плакатов и листовок на героико-патриотическую тематику. Встреча молодежи с ветеранами Великой отечественной войны в Российском информационно-культурном центре "На днях я закончил еще одну книгу, посвященную Великой Отечественной войне, которая во вторник, девятого мая, будет вручена президенту Ильхаму Алиеву. Я благодарен ему за заботу и до конца своих дней готов служить своему народу", — сказал Гритченко. Для ветеранов войны Детский театр-студия "Гюнай" также подготовил литературно-музыкальную композицию, которая никого не могла оставить равнодушным. Юные артисты продемонстрировали свое актерское мастерство на высоком уровне. На сцене выступали дети разных возрастов. Особое внимание гостей привлекли малыши, которые выступили с портретами своих прадедов, погибших на войне. Это мероприятие еще раз является доказательством, что никто не забыт, и ничто не забыто.



Кямаля Алиева

# "Одна на всех"

Идея масштабной акции «Одна на всех», проводимой телекомпанией НТВ (на официальной Facebook-странице которой я и увидел анонс), информационным агентством и радио Sputnik и социальной сетью «Одноклассники» с участниками проекта «Ты супер», акции, посвященной 72-летию Великой Победы советского народа над фашизмом, тронула меня до глубины души и захватила целиком.

Мне страстно захотелось, чтобы наша страна тоже стала частью этого важного, нужного и благородного порыва. Кто может спокойно слушать знаменитую песню Булата Окуджавы из киноленты «Белорусский вокзал», тем более, когда ее исполняют дети?

Долго ломать голову над тем, каким будет бакинский ролик, мне не пришлось – через минуту я уже знал, что у нас будет оригинальная аранжировка с вкраплениями национальной музыки, что мы покажем столичные памятники, а главное – что наше видео украсят участники детского фестиваля «Зима» и, конечно же, ветераны Великой Отечественной войны, завоевавшие для нас с вами мирное небо над головой.

И я был безмерно счастлив, когда мою инициативу поддержали буквально все, к кому я обратился. Все сразу загорелись идеей – и талантливый музыкант и аранжировщик Рустам Рзаев, и преподаватель вокала Мила Ягубова, и молодой амбициозный режиссер видео Эмин Мурадов со своей съемочной командой, и родители детишек, в особенности – Ягуб Гасанов, решивший все бюрократические вопросы, связанные с разрешением на съемки исторических памятников, и вообще помогавший как мог. А наши маленькие герои час за часом ожидали своей очереди на съемочной площадке и делали столько дублей, сколько было нужно. Я благодарю всех, кто был с нами, и отдельное спасибо самым скромным, пожелавшим сохранить инкогнито – без них этот проект не состоялся бы.



Ну а самым трогательным и волнительным моментом всего процесса съемок стало появление на съемочной площадке героев Великой Победы в сопровождении родных. Когда вошли Мамеднаби Наджафов и Хилал Ибрагимов – все вокруг словно замерло… Мы забыли обо всем на свете – в том числе и о съемке… Дети буквально засыпали дорогих гостей букетами цветов, обнимая и целуя их со словами благодарности, а ветераны… еле сдерживали слезы. В их глазах было столько всего, что просто не передать словами.



Хилал Ибрагимов воевал с первых дней войны и дошел до Берлина. Мамеднаби Наджафов отличился при обороне Москвы и освобождении Беларуси, а сопровождавший его моложавый военный оказался генерал-майором Рамизом Наджафовым - герой Великой Отечественной войны воспитал героя войны Карабахской.

Благодарная память – это самое малое и в то же время самое важное, что мы может дать нашим героям, не щадившим своих жизней ради нас и нашей земли. Пока подвиг наших дедов и прадедов живет в наших сердцах, нам не будет стыдно смотреть в глаза своим детям, а, передав им память о нем, мы выполним свой долг перед внуками. Именно эта память, бережно передаваемая из поколения в поколение, и делает нас достойными сыновьями нашей Родины.

Сеймур Закаряев

**Baş redaktor**
Ülvi İBRAHİMLİ
**Məsul katib**
Səidə ABDULLAYEVA

Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.
**Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti

"Azərbaycan Veteranı" qəzeti.
**VÖEN:** 1701285981
verilmə tarixi - 23.11.2011

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34
**Əlaqə telefonu:** 012 440-21-08
**e-mail:** az.veteran@mail.ru
**Dövlət qeydiyyat nömrəsi** - 3486
**Dövlət qeydiyyat tarixi** - 19.10.2011

Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.
Qiyməti 60 qəpik
Tiraj: 1250